# Damazlıq heyvandarlıq haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu qanun Azərbaycan Respublikasında heyvandarlıqda damazlıq işinin təşkilinin və idarə edilməsinin hüquqi və iqtisadi əsaslarını müəyyən edir, bu sahədə münasibətləri tənzimləyir.

## I fəsil
## Ümumi müddəalar

**Maddə 1. Əsas anlayışlar**

1.0. Bu qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. damazlıq heyvandarlıq - kənd təsərrüfatı heyvanlarının damazlıq məqsədilə yetişdirilməsi, təkrar istehsalı, saxlanması və istifadəsi ilə bağlı fəaliyyət sahəsi;

1.0.2. damazlıq işi - kənd təsərrüfatı heyvanlarının genetik potensialının yüksəldilməsi, mövcud heyvan növləri və cinslərinin təkmilləşdirilməsi və yeni cinslərin yaradılması, damazlıq heyvanların sayının artırılması üçün həyata keçirilən kompleks təşkilati-təsərrüfat tədbirləri;

1.0.3. damazlıq heyvan - mənşəyi məlum olan, dövlət damazlıq kitabında qeydə alınmış və damazlıq pasportu (şəhadətnaməsi) verilmiş, yüksək məhsuldar, təkrar istehsala yararlı və yaxşılaşdırıcı cins heyvan;

1.0.4. heyvan cinsləri - eyni mənşəyə və seleksiya strukturuna malik, öz morfoloji və təsərrüfat əhəmiyyətli xüsusiyyətləri ilə başqalarından fərqlənən heyvan qrupu;

1.0.5. damazlıq ehtiyatı (məhsulu, materialı) - damazlıq heyvanlar, onların toxumları, yumurtaları, sürfələri, rüşeymləri və embrionları;

1.0.6. cins heyvanların damazlıq özəyi - heyvan cinslərinin damazlıq təsərrüfatlarda qiymətli genotipə və yüksək məhsuldarlığa malik, seçilmiş yaxşılaşdırıcı damazlıq heyvanlar qrupu;

1.0.7. damazlıq heyvanların bonitirəsi - heyvanların damazlıq keyfiyyətlərinin və istifadə təyinatının müəyyən edilməsi məqsədi ilə kompleks əlamətlər üzrə qiymətləndirilməsi;

1.0.8. damazlıq heyvanların təmiz cinsli yetişdirilməsi - eyni cinsdən olan heyvanların müsbət xüsusiyyətlərini saxlamaq, təkmilləşdirmək və nəsildən-nəslə ötürmək məqsədi ilə yetişdirilməsi;

1.0.9. damazlıq heyvandarlıq təsərrüfatları - damazlıq heyvanların yetişdirilməsi və saxlanması, onların məhsuldarlıq və damazlıq keyfiyyətlərinin təkmilləşdirilməsi, satışı, sınağı, habelə heyvanların süni mayalandırılması və embrionların transplantasiyası ilə məşğul olan hüquqi və fiziki şəxslər;

1.0.10. dövlət damazlıq kitabı - damazlıq heyvanların mənşəyinin, eksteryer, döllük və məhsuldarlıq keyfiyyətlərinin, digər seleksiya əhəmiyyətli əlamətlərinin heyvan cinsləri üzrə qeydiyyatı sənədi;

1.0.11. damazlıq heyvanların dövlət reyestri - damazlıq heyvan cinslərinin və cinsdaxili qruplarının heyvan növləri üzrə mərkəzləşdirilmiş damazlıq uçotu sistemi;

1.0.12. damazlıq heyvanların identikləşdirilməsi - müxtəlif vasitələrlə (damğalama, dərialtı mikroçip yerləşdirmə, genetik ekspertiza və s.) cins heyvanların fərqləndirilməsi və kompleks fərdi əlamətləri üzrə tanınması sistemi.

**Maddə 2. Damazlıq heyvandarlıq haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

2.1. Damazlıq heyvandarlıq haqqında Azərbaycan Respublikasının qanunvericiliyi "Seleksiya nailiyyətləri haqqında" və "Atçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarından, bu qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

2.2. Kənd təsərrüfatı heyvanları hesab edilməyən vəhşi və ev heyvanlarının saxlanması, yetişdirilməsi və istifadəsi sahəsində münasibətlər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 3. Damazlıq heyvandarlıq haqqında qanunvericiliyin məqsədi**

Damazlıq heyvandarlıq haqqında qanunvericiliyin məqsədi kənd təsərrüfatı heyvanlarının məhsuldarlığını artırmaq, mənşəyi bəlli, sabit irsi əlamətlərə malik yüksək məhsuldar cins heyvanlar yetişdirmək, onların təkrar istehsalını və səmərəli dövriyyəsini təşkil etmək, yerli heyvan cinslərinin, azsaylı və nəsli kəsilmək təhlükəsi olan digər cinslərin və biomüxtəlifliyin qorunub saxlanmasını təmin etmək və ölkədə heyvandarlığın inkişafına nail olmaqdır.

**Maddə 4. Damazlıq heyvandarlığın obyektləri və subyektləri**

4.1. Damazlıq heyvandarlığın obyektlərinə kənd təsərrüfatı heyvanlarının əsas zooloji qrupları və onlara aid olan heyvanların yetişdirilməsi və saxlanması üçün lazım olan tövlələr, binalar, qurğular, maşınlar, alət və avadanlıqlar, torpaq sahələri, örüş və otlaqlar, digər təsərrüfat obyektləri və vasitələri aiddir.

4.2. Damazlıq heyvandarlığın subyektlərinə damazlıq təsərrüfatları, damazlıq işində iştirak edən istehsal və xidmət təşkilatları, habelə ictimai birliklər aiddir.

## II fəsil
## Damazlıq işinin dövlət tənzimlənməsi

**Maddə 5. Damazlıq heyvandarlıq sahəsində dövlətin vəzifələri**

5.0. Damazlıq heyvandarlıq sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

5.0.1. damazlıq heyvandarlıq sahəsində dövlət siyasətinin əsas istiqamətlərini müəyyən etmək və həyata keçirmək;

5.0.2. damazlıq heyvandarlıq sahəsində normativ hüquqi aktlar qəbul etmək;

5.0.3. damazlıq heyvandarlığın prioritet sahələrini maliyyələşdirmək, damazlıq subyektlərinin maddi-texniki bazasının yaxşılaşdırılmasına kömək göstərmək;

5.0.4. damazlıq heyvandarlıq sahəsində dövlət nəzarətini həyata keçirmək;

5.0.5. damazlıq heyvanların dövlət qeydiyyatının aparılmasını və damazlıq ehtiyatlarının sertifikatlaşdırılmasını təşkil etmək;

5.0.6. damazlıq heyvandarlığın inkişaf etdirilməsi ilə əlaqədar seleksiya-damazlıq proqramları hazırlamaq və onların həyata keçirilməsinə nəzarət etmək;

5.0.7. damazlıq təsərrüfatların torpaq sahələrinə, örüş və otlaqlara olan tələbatını ödəmək üçün müvafiq tədbirlər görmək;

5.0.8. qanunvericilikdə nəzərdə tutulmuş qaydada damazlıq heyvandarlıq sahəsində beynəlxalq əməkdaşlığı həyata keçirmək, bu fəaliyyətlə əlaqədar istifadə olunan sənədlərin beynəlxalq normalara uyğunlaşdırılmasını təmin etmək;

5.0.9. damazlıq heyvandarlıq sahəsində elmi tədqiqat işlərinin əlaqələndirilməsini, bu sahədə kadr hazırlığının təşkilini və həyata keçirilməsini təmin etmək;

5.0.10. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

**Maddə 6. Damazlıq heyvandarlığa dövlət nəzarətinin həyata keçirilməsi**

6.1. Damazlıq heyvandarlığa dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

6.2. Damazlıq heyvandarlığa dövlət nəzarəti aşağıdakıları əhatə edir:

6.2.1. damazlıq heyvandarlıq sahəsində vahid elmi-texniki siyasəti formalaşdırmaq və həyata keçirmək;

6.2.2. damazlıq heyvandarlıq üzrə proqramların, o cümlədən müvafiq heyvan növləri və cinsləri, həmçinin damazlıq heyvandarlıq təsərrüfatları üzrə seleksiya-damazlıq proqramlarının işlənib hazırlanmasını və həyata keçirilməsini təşkil etmək;

6.2.3. damazlıq ehtiyatlarının sınağını və ekspertizasını aparmaq;

6.2.4. damazlıq heyvandarlıq sahəsində standartları və normaları müvafiq dövlət orqanları ilə birlikdə hazırlamaq və qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq etmək;

6.2.5. damazlıq heyvandarlıq subyektlərindən aldığı məlumatlar əsasında heyvanların hər bir növü və cinsi üzrə dövlət reyestrini və dövlət damazlıq kitablarını tərtib etmək, təsərrüfatların uçotunu aparmaq;

6.2.6. damazlıq ehtiyatlarının məhsuldarlıq və damazlıq keyfiyyətlərini təsdiq edən pasportu (şəhadətnaməni) və sertifikatı tərtib etmək, onların hazırlanmasına, saxlanmasına, uçotuna və verilməsinə nəzarət etmək;

6.2.7. damazlıq heyvandarlıq sahəsində sığorta müqaviləsinin qüvvədə olduğu müddəti və ərazi biotexnoloji üsulların tətbiqi şərtlərini müəyyən etmək;

6.2.8. ölkədən kənara çıxarılmasına məhdudiyyət qoyulan nadir genotipə aid damazlıq heyvanların siyahısını müəyyən etmək və təsdiq olunması üçün müvafiq icra hakimiyyəti orqanına təqdim etmək;

6.2.9. damazlıq heyvandarlıq subyektlərinin fəaliyyətini əlaqələndirmək;

6.2.10. damazlıq heyvandarlığın dövlət tərəfindən dəstəklənməsi, dövlət büdcəsindən maliyyələşən damazlıq işləri və tədbirləri haqqında təkliflər hazırlamaq və müvafiq icra hakimiyyəti orqanına təqdim etmək;

6.2.11. azsaylı və nəsli kəsilmək təhlükəsi olan yerli heyvan cinslərinin qorunub saxlanması üzrə tədbirlər işləyib hazırlamaq və həyata keçirilməsinə nəzarət etmək;

6.2.12. damazlıq heyvandarlıq sahəsində beynəlxalq tədbirlərdə iştirak etmək;

6.2.13. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**Maddə 7. Damazlıq heyvandarlıq sahəsində dövlət müfəttişləri**

7.1. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş səlahiyyətli vəzifəli şəxslər baş dövlət damazlıq müfəttişi və dövlət damazlıq müfəttişləri hesab edilirlər.

7.2. Dövlət damazlıq müfəttişlərinin hüquq və vəzifələri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 8. Damazlıq heyvanların və heyvan qruplarının dövlət qeydiyyatı**

8.1. Damazlıq heyvanların və heyvan qruplarının identikləşdirilməsini aparmaq, mənşəyini, təsərrüfat əhəmiyyətini və istifadə təyinatını müəyyən etmək üçün onların dövlət qeydiyyatı aparılır.

8.2. Dövlət damazlıq kitabında müəyyən cinsə aid yüksək məhsuldar və damazlıq pasportu (şəhadətnaməsi) olan hər bir damazlıq heyvan haqqında məcmu məlumatlar əks olunur.

8.3. Damazlıq heyvanların dövlət reyestrinə heyvan növləri üzrə mövcud cinslərin və cinsdaxili qrupların, həmçinin seleksiya nailiyyəti hesab edilən damazlıq ehtiyatının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məlumatları daxil edilir.

8.4. Damazlıq heyvanların dövlət reyestri və dövlət damazlıq kitabı müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır.

8.5. Damazlıq heyvanların dövlət reyestri və dövlət damazlıq kitabının tərtibi üçün tələb olunan məlumatların damazlıq heyvandarlıq subyektləri tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim edilməsi məcburidir.

8.6. Damazlıq heyvanların dövlət reyestrinin və dövlət damazlıq kitabının tərtib edilməsi və aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

8.7. Seleksiya nailiyyətləri hesab edilən damazlıq ehtiyatlarının patent mühafizəsi qaydası seleksiya nailiyyətləri haqqında qanunvericiliklə tənzimlənir.

**Maddə 9. Cins heyvanların damazlıq pasportu (şəhadətnaməsi) və damazlıq ehtiyatlarının sertifikatlaşdırılması**

9.1. Cins heyvanların damazlıq pasportu (şəhadətnaməsi) heyvanların mənşəyini, məhsuldarlığını, təkrar istehsala yararlılığını və digər damazlıq keyfiyyətlərini təsdiq edən və identikləşdirmə zamanı istifadə olunan əsas sənəddir.

9.2. Damazlıq pasportu (şəhadətnaməsi) cins heyvanların məhsuldarlıq və damazlıq keyfiyyətlərinin kompleks əlamətlər üzrə qiymətləndirilməsi və dövlət qeydiyyatına alınması əsasında verilir.

9.3. Cins heyvanlar üçün hazırlanan pasportun (şəhadətnamənin) forması, tərtib edilməsi qaydası və ona daxil edilən məlumatlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

9.4. Damazlıq ehtiyatlarının sertifikatlaşdırılması damazlıq məhsulun, materialın müəyyən edilmiş normativlərə uyğun və genetik cəhətdən qüsursuz olmasının sənədli təsdiqi üçün həyata keçirilir. Sertifikatlaşdırmanın nəticələri barədə hazırlanan uyğunluq sertifikatı dövriyyəyə cəlb edilən cins heyvanın və digər damazlıq ehtiyatının damazlıq obyekti kimi tanınmasına, təkrar istehsala yararlılığına və ondan yaxşılaşdırıcı kimi istifadə edilməsinə təminat verir.

9.5. Damazlıq ehtiyatlarının sertifikatlaşdırılması, sertifikatların növləri və verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

9.6. Damazlıq pasportu (şəhadətnaməsi) və sertifikatı Azərbaycan və ingilis dillərində beynəlxalq standartların tələblərinə uyğun tərtib edilir.

**Maddə 10. Cins heyvanların uçotu**

10.1. Damazlıq işinin səmərəli təşkili və damazlıq heyvandarlığın inkişaf etdirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada hər on ildə bir dəfə Azərbaycan Respublikasında yetişdirilən heyvanların cins tərkibini müəyyən etmək, habelə damazlıq pasportu (şəhadətnaməsi) olan cins heyvanların sayı və damazlıq keyfiyyəti haqqında məlumatları dəqiqləşdirmək üçün bütün cins heyvanların uçotu aparılır.

10.2. Cins heyvanların uçotunun nəticələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir və ondan ayrı-ayrı təsərrüfatlarda, regionlarda və ölkədə damazlıq işinin qurulmasında və təkmilləşdirilməsində, seleksiya-damazlıq proqramlarının hazırlanmasında və həyata keçirilməsində istifadə olunur.

## III fəsil
## Damazlıq işinin təşkili

**Maddə 11. Seleksiya-damazlıq proqramları**

11.1. Azərbaycan Respublikasında yetişdirilən bütün heyvan cinslərinin məhsuldarlıq və damazlıq keyfiyyətlərinin təkmilləşdirilməsi, yeni heyvan cinslərinin, tiplərinin, ailə, kross və xətlərinin yaradılması müvafiq seleksiya-damazlıq proqramları əsasında həyata keçirilir.

11.2. Seleksiya-damazlıq proqramlarının hazırlanması və həyata keçirilməsi haqqında təlimat müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

11.3. Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün damazlıq heyvandarlıq subyektləri öz səlahiyyətləri daxilində seleksiya-damazlıq proqramlarının tərtib edilməsində və həyata keçirilməsində iştirak edirlər.

11.4. Seleksiya-damazlıq proqramlarında elmin və təcrübənin ən son nailiyyətləri nəzərə alınmaqla yerli və idxal olunan damazlıq ehtiyatlardan səmərəli istifadə olunması, müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, damazlıq heyvanların saxlanması və yemləndirilməsi şəraitinin yaxşılaşdırılması, mövcud cinslərin təkmilləşdirilməsi, yeni cins və cinsdaxili qrupların yaradılması üçün nəzərdə tutulan seçmə və taylaşdırma üsulları, bu işlərin nəticəsində əldə olunacaq iqtisadi səmərəliliyin proqnozlaşdırılması öz əksini tapmalıdır.

**Maddə 12. Damazlıq heyvanların yetişdirilməsi və bonitirəsi**

12.1. Damazlıq heyvanların yetişdirilməsi müvafiq seleksiya-damazlıq proqramına uyğun olaraq həyata keçirilir.

12.2. Damazlıq təsərrüfatlarda yetişdirilən cins heyvanlar müvafiq qaydada təsdiq edilmiş normativlər əsasında bonitirə olunurlar.

12.3. Damazlıq heyvanların bonitirəsi kənd təsərrüfatı heyvanlarının növ və cinsləri, cinsdaxili qrupları üzrə müvafiq damazlıq subyektlərində bonitirəçi mütəxəssislər tərəfindən aparılır. Damazlıq heyvanların bonitirəsi müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi təlimatlara əsasən həyata keçirilir.

12.4. Bonitirənin nəticələri müvafiq sənədlərdə əks olunur və müvafiq icra hakimiyyəti orqanı tərəfindən ümumiləşdirilərək damazlıq heyvanlardan təyinatı üzrə və səmərəli istifadə olunması məqsədilə damazlıq heyvandarlıq subyektlərinə və digər maraqlı tərəflərə müvafiq tövsiyələr verilir.

**Maddə 13. Damazlıq heyvandan reproduksiya məqsədi ilə istifadə edilməsi**

13.0. Damazlıq heyvandan reproduksiya məqsədilə aşağıdakı şərtlərə əməl edilməklə istifadə olunur:

13.0.1. damazlıq heyvanın reproduksiya üçün yararlılığını və yaxşılaşdırıcı olmasını təsdiq edən müvafiq damazlıq pasportu (şəhadətnaməsi) və sertifikatı olduqda;

13.0.2. damazlıq heyvan müvafiq qaydada dövlət qeydiyyatına alındıqda;

13.0.3. damazlıq heyvan vahid identikləşdirmə sisteminə daxil olan metodlarla nişanlandıqda.

**Maddə 14. Damazlıq törədici heyvanların toxumundan reproduksiya məqsədi ilə istifadə olunması**

14.0. Damazlıq törədici heyvanlardan alınmış toxum aşağıdakı hallarda reproduksiya məqsədi ilə istifadə olunur:

14.0.1. toxum müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmış və törəməsinin keyfiyyətinə görə sınaqdan keçirilmiş yüksək məhsuldar və yaxşılaşdırıcı damazlıq törədici heyvandan alındıqda;

14.0.2. toxumun mənşəyini və təkrar istehsala yararlılığını təsdiq edən damazlıq pasportu (şəhadətnaməsi) və uyğunluq sertifikatı olduqda.

**Maddə 15. Damazlıq heyvanların embrionlarından reproduksiya məqsədilə istifadə olunması**

15.1. Damazlıq heyvanların embrionlarından reproduksiya məqsədi ilə aşağıdakı şərtlər daxilində istifadə olunur:

15.1.1. embrionlar bu sahədə ixtisaslaşmış və müvafiq qaydada dövlət qeydiyyatından keçmiş damazlıq heyvandarlıq subyektlərindən əldə edildikdə;

15.1.2. embrionlar müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmış yüksək məhsuldar damazlıq heyvanlardan götürüldükdə;

15.1.3. embrionların damazlıq pasportu (şəhadətnaməsi) və uyğunluq sertifikatı olduqda.

15.2. Damazlıq heyvanların embrionları yalnız damazlıq heyvandarlıq subyektlərinə satıla və verilə bilər. Embrionların satılması və istifadəsi onların transplantasiyası üzrə ixtisaslaşmış subyektlərin müstəsna səlahiyyətidir və müvafiq icra hakimiyyəti orqanının nəzarəti altında həyata keçirilir.

**Maddə 16. Damazlıq törədici heyvanların qiymətləndirilməsi**

16.1. Cinsin təkrar istehsalı və damazlıq keyfiyyətinin yüksəldilməsi məqsədilə seçilmiş damazlıq törədici heyvanlar fərdi xüsusiyyətlərinə və verdikləri nəslin keyfiyyətinə görə yoxlanılaraq qiymətləndirilirlər.

16.2. Damazlıq törədici heyvanların yoxlanması və qiymətləndirilməsi damazlıq təsərrüfatlarında həyata keçirilir. Qiymətləndirilmənin nəticəsinə uyğun olaraq törədicilərin istifadə istiqamətləri müəyyən edilir, onlar seleksiya-damazlıq proqramlarına və layihələrinə uyğun müvafiq damazlıq təsərrüfatlarında istifadə olunur.

16.3. Damazlıq törədici heyvanların yoxlanması və qiymətləndirilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş təlimata uyğun olaraq aparılır.

**Maddə 17. Yerli heyvan cinslərinin tanınması, patentləşdirilməsi və damazlıq özəklərinin qorunması**

17.1. Azərbaycan Respublikasında yetişdirilən Qarabağ və Dilbaz at cinsləri, Azərbaycan qonuru və Qırmızı Qazax qaramal cinsləri, Azərbaycan camışı, Azərbaycan zebusu, Qarabağ, Qaradolaq, Qala, Azərbaycan dağ merinosu, Balbas və Bozax qoyun cinsləri, Azərbaycan dəvəsi, Azərbaycan ovçarkası (qoyun iti), Qabaqtəpə arıları, cins kimi formalaşmaqda olan Quba yorğası, Şirvan və Kiçik Qafqaz atları, Gödək, Şirvan, Ləzgi, Herik və Caro qoyunları, yerli keçilər, ev quşları, Lənkəran boz arı populyasiyası, habelə dünyada geniş yayılmış heyvan cinslərinin yerli tipləri, Azad Azərbaycan, Şəki-1 və Şəki-2

tut ipəkqurdu cinsləri və digər zooloji qruplar yerli heyvan genofondunun nümunələri kimi tanınır.

17.2. Azərbaycan Respublikasında yeni yaradılan heyvan cinsləri və digər zooloji qruplar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada seleksiya nailiyyəti kimi qanunvericiliyə uyğun olaraq qeydə alınır və patentləşdirilir. Bu qrup heyvanların sınağının aparılması qaydaları, seleksiya nailiyyətinə olan tələblər və digər şərtlər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

17.3. Yeni heyvan cinsləri və zooloji qruplar rayonlaşdırılır, dövlət damazlıq reyestrinə daxil edilir və onların ayrılıqda uçotu aparılır.

17.4. Azərbaycan Respublikasında yetişdirilən heyvan cinslərinin və dünyada geniş yayılmış cinslərin yerli tiplərinin damazlıq özəklərinə mənsub olan nümunələri qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən qorunur. Bu heyvanların səbəbsiz ölümündə və qeyri-qanuni formada çıxdaş edilməsində təqsirli olan şəxslər qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

## IV fəsil
## Damazlıq heyvandarlıq təsərrüfatları və onların fəaliyyətinin əsas istiqamətləri

### Maddə 18. Damazlıq heyvandarlıq təsərrüfatlarının növləri və fəaliyyət prinsipləri

18.1. Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinin, əcnəbilərin, vətəndaşlığı olmayan və xarici hüquqi şəxslərin damazlıq heyvandarlıq təsərrüfatları, o cümlədən damazlıq işi ilə məşğul olan istehsal və xidmət təşkilatları yaratmaq hüququ vardır.

18.2. Damazlıq heyvandarlıq təsərrüfatları hər bir cins üzrə qanunvericilikdə nəzərdə tutulmuş qaydada təsdiq edilmiş seleksiya-damazlıq proqramına uyğun fəaliyyət göstərir və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada attestasiyadan keçirilərək onun damazlıq təsərrüfat növü müəyyən edilir.

18.3. Damazlıq heyvandarlıq təsərrüfatlarının əsas növlərinə damazlıq zavodları, reproduktorları, fermaları və sınaq müəssisələri, süni mayalandırma və embrionların transplantasiyası mərkəzləri, genobanklar, immunogenetik ekspertiza və seleksiya məqsədi ilə heyvandarlıq məhsullarının ekspertizası laboratoriyaları daxildir.

18.4. Damazlıq heyvandarlıq təsərrüfatlarının hər hansı bir fəaliyyət növünə aid edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydalara uyğun olaraq, hər bir heyvan növü və cinsi üzrə təsdiq edilmiş normalar, tələblər və şərtlər əsasında həyata keçirilir.

18.5. Damazlıq heyvandarlıq təsərrüfatları fəaliyyətlərini aşağıdakı prinsiplər əsasında qururlar:

18.5.1. cinslərin təmizlikdə yetişdirilməsinə üstünlük verməklə onların təkmilləşdirilməsinin, yerli və dünyada geniş yayılmış heyvan cinslərinin genofonduna aid olan damazlıq heyvanların qorunub saxlanmasının təmin olunması;

18.5.2. damazlıq ehtiyatından təyinatı üzrə və səmərəli istifadə edilməsi;

18.5.3. yüksək məhsuldar və yerli şəraitə davamlı cins heyvanların sayının artırılması və daha geniş yayılması;

18.5.4. biomüxtəlifliyin elmi əsaslarla təmin olunması və qorunması;

18.5.5. cinslərin rayonlaşdırılması prinsipinə əməl edilməsi.

18.6. Damazlıq heyvandarlıq təsərrüfatları müxtəlif mülkiyyət növündə ola bilərlər.

18.7. Damazlıq heyvandarlıq təsərrüfatları zootexniki normalara uyğun torpaq, örüş və otlaq sahələrinə, su obyektlərinə, tövlə və köməkçi binalara, maşın, avadanlıq və qurğulara, digər təsərrüfat obyektlərinə və vasitələrinə malik olmalıdırlar.

18.8. Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün damazlıq heyvandarlıq təsərrüfatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən uçota alınırlar.

**Maddə 19. Damazlıq zavodları**

19.1. Damazlıq zavodları məqsədyönlü seleksiya-damazlıq proqramları əsasında yüksək genetik potensiala malik cins heyvanların təmiz cinsli yetişdirilməsi və damazlıq keyfiyyətlərinin təkmilləşdirilməsi ilə məşğul olan ən yüksək kateqoriyalı ixtisaslaşdırılmış damazlıq heyvandarlıq təsərrüfatlarıdır.

19.2. Damazlıq zavodları fəaliyyətini cinsin genetik potensialının təkmilləşdirilməsi və damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması, yeni cinslərin, tiplərin, ailə, kross və xətlərin yaradılması, habelə özündə yetişdirdiyi yüksək məhsuldar damazlıq ehtiyatlarla damazlıq reproduktor və fermaların təmin edilməsi üzərində qurur.

19.3. Damazlıq zavodlarında reproduksiya üçün istifadə olunan damazlıq törədici heyvanlar cinsin tanınan xətt və ailəsinə mənsub olan, verdiyi nəslə görə qiymətləndirilmiş yüksək məhsuldar heyvanlardan təşkil edilməli, naxırın (sürünün, ilxının) davamlı reproduksiyası və dövriyyəsi təmin olunmalıdır.

19.4. Seleksiya-damazlıq proqramlarında heyvanların yeni cinsləri, tipləri, ailə, kross və xətlərin yaradılması nəzərdə tutulduğu hallarda damazlıq zavodlarında təmizqanlı müəyyən qrup heyvanların başqa cinsdən olan heyvanlarla çarpazlaşdırılmasına, hibridləşdirilməsinə və embrion köçürülməsinə qismən yol verilə bilər.

**Maddə 20. Damazlıq reproduktorlar və fermalar**

20.1. Damazlıq reproduktorlar damazlıq zavodları tərəfindən damazlıq heyvanlarla təmin edilən, seleksiya-damazlıq proqramı əsasında cins heyvanların damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması, təkrar istehsalı və sayının artırılması ilə məşğul olan, ilk növbədə, əmtəəlik fermaların damazlıq heyvanlarla təmin edilməsi üzərində öz fəaliyyətini quran damazlıq heyvandarlıq təsərrüfatıdır.

20.2. Damazlıq fermalar damazlıq ehtiyatlarını ilk növbədə damazlıq zavodlarından və reproduktorlardan götürən, azsaylı və nəsli kəsilmək təhlükəsi olan yerli heyvan cinslərinin və cinsdaxili qrupların yetişdirilməsi üzrə öz fəaliyyətini quran damazlıq heyvandarlıq təsərrüfatıdır.

**Maddə 21. Kənd təsərrüfatı heyvanlarının süni mayalandırılması və embrionların transplantasiyası ilə məşğul olan təsərrüfatlar və genobanklar**

21.1. Kənd təsərrüfatı heyvanlarının süni mayalandırılması ilə məşğul olan təsərrüfatlar xüsusi texnologiya və avadanlıqlarla təchiz olunmuş, sanitar-gigiyenik, zoobaytar və digər tələblərə riayət edilməklə, ixtisaslı mütəxəssislər tərəfindən heyvanların süni yolla çoxaldılması ilə məşğul olan hüquqi və fiziki şəxslərdir.

21.2. Kənd təsərrüfatı heyvanlarının embrionlarının transplantasiyası ilə məşğul olan təsərrüfatlar damazlıq işinin səmərəliliyinin artırılması və yüksək məhsuldar damazlıq törədici heyvanlardan daha çox sayda bala əldə edilməsi məqsədilə xüsusi biotexnologiya əsasında embrionların köçürülməsi yolu ilə onların təkrar istehsalını həyata keçirən hüquqi və fiziki şəxslərdir.

21.3. Süni mayalandırma və embrionların transplantasiyası üzrə ixtisaslaşmış təsərrüfatlar öz fəaliyyətini aşağıdakı istiqamətdə qururlar:

21.3.1. reproduksiya məqsədilə istifadə edilən damazlıq törədici heyvanların, onların toxumlarının və embrionlarının əldə edilməsi, saxlanması, istifadəsi;

21.3.2. damazlıq törədici heyvanların verdikləri nəslin keyfiyyətinə görə yoxlanması və qiymətləndirilməsi;

21.3.3. yaxşılaşdırıcı kimi müəyyən olunmuş damazlıq törədici heyvanların toxumlarının satışı;

21.3.4. toxumların və embrionların istifadə edilməsi üzrə nəticələrin uçota alınmasının və genofond mübadiləsinin təşkili.

21.4. Süni mayalandırma və embrionların transplantasiyası üzrə ixtisaslaşmış təsərrüfatlarda yalnız damazlıq pasportu (şəhadətnaməsi) və sertifikatı olan heyvanlar, onların toxumları və embrionları istifadə oluna bilər.

21.5. Azsaylı və nəsli kəsilmək təhlükəsi olan yerli heyvan cinslərinin, habelə dünyada geniş yayılmış cinslərə aid qiymətli damazlıq heyvanların qorunmasını və gələcəkdə uzun müddət istifadəsini təmin etmək məqsədilə onların toxumlarının saxlanması üçün xüsusi texnologiyalar əsasında fəaliyyət göstərən genobanklar yaradılır. Genobankların təşkili müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.

21.6. Kənd təsərrüfatı heyvanlarının süni mayalandırılması və embrionların transplantasiyası müvafiq icra hakimiyyəti orqanının icazəsi əsasında həyata keçirilə bilər.

**Maddə 22. Damazlıq ehtiyatlarının sınağı və ekspertizası subyektləri**

22.1. Damazlıq heyvanların sayının artırılması, onların daha geniş və səmərəli istifadə olunmasını təmin etmək məqsədi ilə damazlıq ehtiyatlarının sınağı və ekspertizası keçirilir.

22.2. Damazlıq ehtiyatlarının sınağı və ekspertizası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydalar əsasında hüquqi şəxs statusunda fəaliyyət göstərən ixtisaslaşmış laboratoriyalar, ippodromlar, digər sınaq və ekspertiza subyektləri tərəfindən həyata keçirilir.

22.3. Damazlıq ehtiyatlarının sınağını və ekspertizasını həyata keçirən subyektlərin fəaliyyəti onların daxili nizamnamələri ilə tənzimlənir.

22.4. Damazlıq ehtiyatlarının sınağının və ekspertizasının nəticələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydalara uyğun olaraq təhlil edilir və heyvanların istifadə təyinatı müəyyən olunur.

22.5. Damazlıq ehtiyatlarının sınağı və ekspertizasında bilərəkdən təhrifə yol verən şəxslər qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 23. Damazlıq heyvandarlıqla məşğul olan digər subyektlər**

23.1. Damazlıq heyvandarlıqla məşğul olan digər subyektlərə heyvandarlıq sahəsində elmi-texniki nailiyyətlərin istehsalatda tətbiqi, sərgilər və hərraclar keçirilməsi, damazlıq işi üzrə xidmətlər, təlim, tədris, maarifləndirmə, kadrların hazırlanması və digər istiqamətlərdə fəaliyyət göstərən subyektlər, habelə sahənin müxtəlif problemləri ilə məşğul olan klublar, assosiasiyalar və başqa ictimai birliklər aid edilir.

23.2. Damazlıq heyvandarlıqla məşğul olan digər subyektlərin yaradılması və fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi və subyektlərin daxili nizamnaməsi ilə tənzimlənir.

23.3. Damazlıq heyvandarlıq subyektləri, o cümlədən ictimai birliklər dövlət orqanlarının səlahiyyətlərinə aid olan nəzarət və tənzimləyici funksiyaları yerinə yetirə bilməzlər.

**Maddə 24. Damazlıq heyvandarlıq təsərrüfatlarının vəzifələri və hüquqları**

24.1. Damazlıq heyvandarlıq təsərrüfatlarının əsas vəzifələri aşağıdakılardır:

24.1.1. damazlıq heyvandarlığa dair Azərbaycan Respublikasının qanunvericiliyinə əməl etmək;

24.1.2. damazlıq heyvandarlıq fəaliyyəti ilə məşğul olmaq üçün müəyyən edilmiş qaydada uçota durmaq;

24.1.3. istehsal etdikləri damazlıq ehtiyatları dövriyyəyə cəlb edildikdə onların təkrar istehsala yararlılığını və digər damazlıq keyfiyyətlərini təsdiq edən pasport (şəhadətnamə) və sertifikat təqdim etmək;

24.1.4. baytarlıq-sanitariya tələblərinə riayət etmək;

24.1.5. müəyyən edilmiş qaydada damazlıq uçotu aparmaq və müvafiq icra hakimiyyəti orqanına tələb olunan məlumatları təqdim etmək;

24.1.6. damazlıq heyvanların saxlanması, yemləndirilməsi və yetişdirilməsi qaydalarına əməl etmək, onların əsaslı səbəb olmadan çıxdaş edilməsinə yol verməmək;

24.1.7. damazlıq heyvandarlıq sahəsində nəzarətin həyata keçirilməsi üçün şərait yaratmaq və dövlət damazlıq müfəttişlərinin verdiyi rəsmi göstərişlərə vaxtında əməl etmək;

24.1.8. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

24.2. Damazlıq heyvandarlıq təsərrüfatları qanunvericiliklə müəyyən edilmiş qaydada aşağıdakı hüquqlara malikdirlər:

24.2.1. damazlıq işi sahəsində proqramların, layihələrin hazırlanmasında və icrasında iştirak etmək, digər damazlıq subyektləri ilə ortaq problemlərin həllini həyata keçirmək məqsədilə ictimai birliklər yaratmaq;

24.2.2. cins heyvanlardan və digər damazlıq ehtiyatlarından, yeni yaradılmış seleksiya nailiyyətlərindən istifadə etmək, müvafiq qanunvericiliyə əsasən onların alqı-satqısını, icarəyə verilməsini və ekspertizasını həyata keçirmək;

24.2.3. damazlıq heyvandarlıq üzrə keçirilən hərrac, sərgi və baxışlarda, elmi simpoziumlarda, sınaq, yarış və müsabiqələrdə iştirak etmək;

24.2.4. damazlıq heyvanların yetişdirilməsi və saxlanması üçün yüksək keyfiyyətli və məhsuldar torpaq sahələri ilə ilk növbədə təmin olunmaq, örüş və otlaqlardan, habelə su mənbələrindən istifadə üçün servitutlar əldə etmək;

24.2.5. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

## V fəsil
## Damazlıq heyvandarlığın maliyyələşdirilməsi, kadr və elmi təminatı

**Maddə 25. Damazlıq heyvandarlığın maliyyə təminatı**

25.1. Damazlıq heyvandarlığın maliyyə təminatı bu fəaliyyətdən əldə olunan vəsaitlər, dövlət büdcəsindən ayırmalar, kreditlər, qrantlar, hüquqi və fiziki şəxslər tərəfindən verilən ianələr və digər mənbələr hesabına formalaşır.

25.2. Damazlıq heyvandarlığın dövlət büdcəsi hesabına maliyyələşdirilməsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

25.3. Damazlıq heyvandarlığın inkişafına investisiyaların cəlb edilməsinə, dünyada geniş yayılmış cinslərə aid məhsuldar damazlıq heyvanların seleksiya məqsədilə idxal edilməsinə, elmi nailiyyətlərin və mütərəqqi texnologiyaların heyvandarlıqda tətbiqinə dövlət tərəfindən əlverişli iqtisadi və hüquqi mühit yaradılır.

**Maddə 26. Damazlıq heyvandarlığın kadr və elmi təminatı**

26.1. Damazlıq heyvandarlıq sahəsində çalışan mütəxəssislərin hazırlanması və əlavə təhsili müvafiq icra hakimiyyəti orqanının təklifləri əsasında qanunvericiliyə uyğun olaraq planlaşdırılır və müəyyən edilmiş qaydada həyata keçirilir.[1]

26.2. Damazlıq heyvandarlıq sahəsində elmi tədqiqatlar Azərbaycan Respublikasında müvafiq elmi tədqiqat müəssisələri, tədqiqatçı alimlər və mütəxəssislər tərəfindən aparılır.

26.3. Elmi-tədqiqat müəssisələri damazlıq heyvandarlıq sahəsində seleksiya-damazlıq proqramlarının, mövcud cinslərin təkmilləşdirilməsi, yeni cinslərin və cinsdaxili tiplərin yaradılmasının metod və üsullarının hazırlanması və həyata keçirilməsi, digər elmi-texniki tədqiqatların aparılması ilə məşğul olurlar.

**Maddə 27. Damazlıq ehtiyatlarının idxalı və ixracı**

27.1. Damazlıq ehtiyatlarının idxalı və ixracı Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

27.2. Damazlıq ehtiyatlarının ixracı zamanı Azərbaycan Respublikasında yetişdirilən nadir genotipə malik heyvan nümunələrinin ölkədən çıxarılmasına məhdudiyyət qoyula bilər. Ölkədən kənara çıxarılmasına məhdudiyyət qoyulan damazlıq heyvanların və digər damazlıq ehtiyatlarının siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

## VI fəsil
## Damazlıq heyvandarlıq sahəsində beynəlxalq əməkdaşlıq, mübahisələrin həlli və məsuliyyət

**Maddə 28. Damazlıq heyvandarlıq sahəsində beynəlxalq əməkdaşlıq**

Damazlıq heyvandarlıq sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalar, xarici dövlətlərlə bağlanmış müqavilələr, sazişlər, razılaşmalar və digər beynəlxalq hüquq normaları əsasında həyata keçirilir.

**Maddə 29. Damazlıq heyvandarlıq haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Bu qanunun pozulmasına görə təqsirli olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 30. Mübahisələrin həlli**

Damazlıq heyvandarlıq haqqında qanunvericiliyin pozulması ilə əlaqədar mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həll edilir.

**Maddə 31. Qanunun qüvvəyə minməsi**

31.1. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

31.2. Bu qanun qüvvəyə mindiyi gündən "Damazlıq işi haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, №1, maddə 24; 2001-ci il, №12, maddə 736; 2002-ci il, №5, maddə 241; 2007-ci il, №10, maddə 938) qüvvədən düşmüş hesab edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 dekabr 2007-ci il
№ 516-IIIQ

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

1. 21 dekabr 2010-cu il tarixli **38-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 71)**

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

[1] 21 dekabr 2010-cu il tarixli **38-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 18 fevral 2011-ci il, № 38, "Azərbaycan" qəzeti, 20 fevral 2011-ci il, № 40, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 71)** ilə 26.1-ci maddəsində "**ixtisaslarının artırılması**" sözləri "**əlavə təhsili**" sözləri ilə əvəz edilmişdir.